# Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında
# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 1998-ci il tarixli, 731 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:
   Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planında nəzərdə tutulmuş əsərlərin hazırlanması və nəşri üçün aşağıda göstərilən təşkilatlara müvafiq vəsait ayrılsın:

   Azərbaycan Elmlər Akademiyası — 120.000.000 (yüz iyirmi milyon) manat;

   Baş Arxiv İdarəsi — 35.000.000 (otuz beş milyon) manat;

   «Azərbaycan» nəşriyyatı — 300.000.000 (üç yüz milyon) manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV
Bakı şəhəri, 22 fevral 1998-ci il
№ 751